# LƏNKƏRAN QƏZASININ GENERAL-QUBERNATORU

## Onun Tuğda şölələnən ömür günəşini uzaq Kareliyada söndürdülər

**İyirminci əsrin ikinci onilliyində tarixi meydana qədəm qoyan Azərbaycan Demokratik Respublikası (ADR) cəmi 23 ay yaşasa da, öz dövrü üçün mütərəqqi əhəmiyyətli qanunlar qəbul edib. Haqqında danışmaq istədiyimiz Cavad bəy Məlikyeqanov 28 may 1918-ci ildə ADR-in yaradılması haqqında tarixi Bəyannaməni imzalayan dövlət xadimlərimizdəndir.**

Cavad bəy Rza oğlu Məlikyeqanov 1878-ci ildə Şuşa mahalındakı Tuğ kəndində dünyaya göz açıb. İlk ibtidai təhsilini həmin dövrün görkəmli maarifçilərindən və Füzuli poeziyasının davamçılarından sayılan şair Mir Mehdi Xəzainin ev məktəbində alan Cavad bəy 1903-cü Bakıya gəlib neft mədənlərində əmək fəaliyyətinə başlayır. O, gündəlik işdən savayı ölkədə baş verən ictimai-siyasi proseslərlə də maraqlanır və "Hümmət" təşkilatının sıralarına daxil olur.

Cavad bəy tez-tez öz dostları, iş yoldaşları ilə birlikdə fəhlə mitinqlərində iştirak edir, zəhmətkeşlərin hüquqlarının müdafiəsi üçün əlindən gələni əsirgəmir.

C.Məlikyeqanovun neftçilər arasında qısa müddətdə nüfuz qazanması çar məmurlarının nəzərindən qaçmır. 1909-cu ildə Bakının general-qubernatoru R.Martınovun əmri ilə o, bir il müddətinə həbs cəzası kəsilir. Həbsxanadan çıxdıqdan sonra Cavad bəy doğma Tuğ kəndinə qayıdaraq müxtəlif janrlı bədii və ictimai-siyasi ədəbiyyatın mütaliəsi ilə məşğul olur, həmçinin Şuşanın, Qaryaginin (indiki Füzuli rayonu - A.B), Gəncənin, Ağdamın və digər qonşu ərazilərin açıqfikirli, maarifpərvər şəxsləri ilə dostluq əlaqələri saxlayır.

### Cavad bəy Tuğda yaşadığı müddətdə

Baxşəli bəy Məlik-Aslanovun qızı Rəna xanımla ailə həyatı qurur. Bu izdivacdan onların Ənvər adlı oğlu, Tamara adında qızı dünyaya gəlir. Lakin tale Cavad bəydən bir müddət "üz çevirir". O iki yaşlı oğlu Ənvəri, sonra isə gənc həyat yoldaşı Rəna xanımı itirir. Bu ayrılığa dözə bilməyən Cavad bəy yeganə qızını anası Mina xanımın yanında qoyaraq 1914-cü ildə yenidən Bakıya dönür və milyonçu Şibayevin mədənlərində tabelçi vəzifəsində işləməyə başlayır.

***Həmin ildən o, Müsavat Partiyasının üzvü kimi mütəmadi olaraq bu siyasi təşkilatın tədbirlərində fəal iştirak edir və tezliklə məzmunlu, odlu-alovlu çıxışlar söyləyən natiqə çevrilir.***

Siyasi fəaliyyəti ilə yanaşı, C.Məlikyeqanov təhsilinin də qayğısına qalır. Bakıda iki ixtisas məktəbini bitirərək mühəndis-texnik diplomunu alır. Cavad bəy doğma Azərbaycan dili ilə yanaşı rus, alman, fars, gürcü və erməni dillərində də sərbəst danışıb yazmağı bacarırdı.

1917-ci il dekabrın 26-dan 31-dək Bakıda keçirilən Müsavat Partiyasının qurultayında iştirak edən Cavad bəy iki həftədən sonra Zaqafqaziya komissarlığının müsəlman fraksiyasının tərkibinə seçilir.

### 26 may 1918-ci ildə

***C.Məlikyeqanov Azərbaycan Milli Şurasının tərkibində yer alır. İki gün sonra isə o, Həsən bəy Ağayev, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli, Rəhim bəy Vəkilov, Xəlil bəy Xasməmmədov, Şəfi bəy Rüstəmbəyov, Musa bəy Rəfiyevlə birlikdə Azərbaycan Demokratik Respublikasının yaradılması haqqında "Müstəqillik Bəyannaməsin"nə imza atır.***



C.Məlikyeqanov Azərbaycan parlamentinin üzvü kimi onun iclaslarında fəal iştirak edir. Bir müddət sonra isə o, Zaqafqaziya Seymində Azərbaycanı ləyaqətlə təmsil edir.

***1919-cu ildə gənc demokratik respublikanın cənub regionunda həyəcanlı vəziyyət yaranmışdı. Yayda polkovnik İlyaşeviçin komandanlığı ilə Lənkəranda hakimiyyəti ələ keçirən Denikinin quldur dəstələri bu bölgəni Rusiyanın tabeçiliyinə keçirməyə cəhd göstərirdilər. Şəhərin aşıqfikirli, savadlı şəxslərinə göz görə-görə divan tutulurdu. Belə vəziyyət ADR-in rəhbərliyini narahat etməyə bilməzdi. Respublika parlamentinin fövqəladə iclasında səs çoxluğu ilə Cavad bəy Məlikyeqanov Lənkəran mahalının səlahiyyətli nümayəndəsi seçilir.***

Milli hökumətin göstərişi və şəxsən Cavad bəyin təklifi ilə Azərbaycan ordusunun dəstələri general-mayor Həbibulla Səlimovun komandanlığı altında Lənkərana göndərilir. Milli Ordu qoşunlarının şücaəti sayəsində qondarma "Muğan radası"nın və Denikinin tör-töküntülərinin məhv edilməsindən sonra Cavad bəy Məlikyeqanov Lənkəran qəzasının general-qubernatoru təyin olunur. ADR-in proqramını Lənkəranda həyata keçirən Cavad bəy bütün



güc-qüvvəsini bu diyarın iqtisadi-mədəni inkişafına sərf edir.Çox keçmir ki, Lənkəranda həyat öz axarına düşür. C.Məlikyeqanovun köməyi ilə burada klub və kitabxanalar fəaliyyətə başlayır, savadsızlığın ləğvi üzrə kurslar açılır.

Cavad bəy 28 aprel 1920-ci ilədək - Azərbaycan Demokratik Respublikasının süqutuna kimi Lənkəran qəzasının general-qubernatoru vəzifəsində çalışıb. XI Qızıl Ordu Bakını, daha sonra Lənkəranı ələ keçirəndən sonra Cavad bəy həyatının təhlükədə olmasına baxmayaraq Vətəni tərk etmək niyyətinə düşmür.

Bir müddət o, əmək birjasında, neft təchizatı idarəsində, Bakı Sənaye Texnikumunda işləyir. Hansı sahədə çalışmasından asılı olmayaraq Cavad bəy Məlikyeqanov özünü Vətənin layiqli övladı kimi göstərə bilir. Amma buna baxmayaraq o, qeyri-qanuni yollarla altı dəfə cinayət məsuliyyətinə cəlb olunur. 1933-cü ildə isə Cavad bəy Azərbaycan Fövqəladə Komissiyasının qərarı ilə yenidən həbs cəzasına məhkum edilir və ömürlük Kominin düşərgələrinə sürgünə göndərilir. Onu da qeyd edək ki, C.Məlikyeqanovun "Vətən xaini" kimi tutulması haqqında orderi erməni millətçiləri Nersesov və Ayvazov imzalayıblar.

### Respublika rəhbərliyinin

qarafikirli bəzi məmurları üçün elə bil bunlar bəs etmirdi. 1937-ci ildə onlar Cavad bəyin həyat yoldaşı Məryəm xanım Bayraməlibəyovanı, daha sonra digər qohumlarını həbsxanaya saldılar. Onu da bildirək ki, Məryəm xanım Bayraməlibəyova görkəmli Azərbaycan maarifçisi Teymur bəy Bayraməlibəyovun doğma qızı və davamçısıdır. Lənkəran şəhərində qızlar üçün ilk məktəbin və xeyriyyə cəmiyyətinin yaradılması məhz bu cəfakeş qadının adı ilə bağlıdır.

***Repressiya Məlikyeqanovlar ailəsinin bütün üzvlərini bir-birindən ayrı salıb. Cavad bəyin üç qızı - Azərə, Taliyə və Asimə nənələri Şirin xanımın himayəsində qalıb. Məlikyeqanov ailəsinin bir çox üzvləri "Vətən xaini" damğasından qorxaraq ata-baba soyadlarını Yeqanlı, Yeqanov, Rzayev, Zeynalov, Behbudov və s. ilə əvəz etməyə məcbur olublar.***

### Ömrünün otuz beş ildən çoxunu həbsxanalarda keçirən

Cavad bəy Məlikyeqanov 1942-ci il mayın 18-də Kareliyada sürgündə vəfat edib. Ona yalnız ölümündən sonra - 1959-cu ilin fevralında Kareliya MSSR Ali Məhkəməsi tərəfindən bəraət verilib. Cavad bəyin ömür-gün yoldaşı Məryəm xanım isə 1956-cı ildə bəraət alıb və 1987-ci ildə 89 yaşında dünyasını dəyişib. C.Məlikyeqanovun hər üç övladı ali təhsil alıb. Tanınmış həkim olmuş böyük qızı Azərə tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülüb.

***Bəli, Cavad bəy Məlikyeqanov bütün ömrü boyu xalqına, Vətəninə sadiq olub. Onun sürgündən həyat yoldaşı Məryəm xanıma göndərdiyi məktubdan aşağıdakı sətirlər dediklərimizə əyani sübutdur:"...Axı, sən yaxşı bilirsən ki, Vətənimi necə sevirəm! Mənim Azərbaycanım, mənim xalqım mənə çox əzizdir. Onlar üçün hətta həyatımdan keçməyə belə hazıram!.."***

Ondan bu həyatı aldılar!

Sonda qeyd edək ki, məhz Azərbaycan Demokratik Cümhuriyyətinin şərəfli tarixi üzərindəki yasaq götürüldükdən sonra bir sıra ictimai və siyasi xadimlər özlərinin layiqli qiymətlərini ala bildilər. 1998-ci ildə Cavad bəy Məlikyeqanovun anadan olmasının 120-ci ildönümü münasibətilə onun 1921-1933-cü illərdə Bakıda yaşadığı Ostrovski (indiki Süleyman Tağızadə) küçəsindəki 68 saylı binaya xatirə lövhəsi vurulub. Amma təəssüf ki, C.Məlikyeqanovun həyat yoldaşı Məryəm xanım Bayraməlibəyova hələ də bu diqqətdən kənarda qalıb.

***P.S.*** ***Ötən il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev alınmaz qala sayılan Şuşa şəhərinin erməni əsarətindən azad edilməsi xəbərini xalqa çatdıranda bildirmişdi: "Mən bu gün Heydər Əliyevin qəbrini ziyarət etdim. Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim ki, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu böyük qələbədir! Və şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün. Gözün aydın olsun, Azərbaycan!"***

***Şuşanın, Qarabağ torpaqlarının, eləcə də Tuğun... bu gün düşmən tapdağından azad olunmasından çox güman ki, Cavad bəy Məlikyeqanovun da ruhu şaddır...***

**Ağaddin BABAYEV,**
**yazıçı-publisist**